# TOFİQ HACIYEV – 85



Azərbaycan dilçiliyi və ümumən türkologiyanın görkəmli nümayəndələrindən biri, AMEA Dilçilik İnstitutunun direktoru, Bakı Dövlət Universiteti Türkologiya kafedrasının müdiri, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi Tofiq İsmayıl oğlu Hacıyev elm tariximizdə özünəməxsus bir yeri olan şəxsiyyətlərdəndir.

T.İ.Hacıyev dilçilik və ədəbiyyatşünaslığın müxtəlif problemlərinə həsr olunmuş 25 kitabın, 300-dən çox elmi və elmi-kütləvi məqalənin müəllifidir. O, təkcə Azərbaycan Respublikasında deyil, onun hüdudlarından uzaqlardakı elmi dairələrdə yaxşı tanınan görkəmli türkoloq alimdir. Ədəbi dil tarixi, dialektologiya, müqayisəli-tarixi türkologiya, üslubiyyat və ədəbiyyatşünaslıq məsələlərinə dair sanballı elmi əsərləri, elmi pedaqoji kadrların hazırlığı sahəsindəki səmərəli fəaliyyəti ona böyük şöhrət qazandırmışdır.

T.İ.Hacıyev 1936-cı il mayın 1-də Azərbaycan Respublikası Cəbrayıl rayonunun Soltanlı kəndində doğulmuşdur. 1958-ci ildə Azərbaycan Dövlət Universitetinin (Hazırda Bakı Dövlət Universiteti – İ.M.) Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. O, filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün 1962-ci ildə müdafiə etdiyi “Azərbaycan dilinin Cəbrayıl şivəsi” mövzusundakı dissertasiyası ilə dilçiliyimizə gəlmişdir. Azərbaycan dili şivələrinin monoqrafik üsulla öyrənilməsinə aid ən yaxşı əsərlərdən biri olan bu araşdırmada Cəbrayıl rayonu şivələrinin keçid xarakterliyi elmi şəkildə əsaslandırılmış, türkologiya üçün bir çox maraqlı faktlar ilk dəfə aşkara çıxarılmışdır. T.İ.Hacıyev sonralar elmi axtarışlarını yeni bir istiqamətdə davam etdirmiş və 1969-cu ildə 33 yaşında “XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1962-ci ildən M.F.Axundov adına Azərbaycan Perdaqoji Dillər İnstitutunun Azərbaycan dili və ədəbiyyatı kafedrasında işləyən T.İ.Hacıyev 1970-ci ildən pedaqoji fəaliyyətini Azərbaycan Dövlət Universitetinin Türkologiya kafedrasında davam etdirmişdir. O, 1965-ci ildə dosent, 1972-ci ildə professor elmi adını almışdır. T.İ.Hacıyev 1985-ci ildən Azərbaycan Dövlət Universitetinin (1990-cı ildən Bakı Dövlət Universiteti) Türkologiya kafedrasının müdiri vəzifəsində işləmiş və ömrünün sonunadək (27 noyabr 2015) bu vəzifədə olmuşdur. O, müəyyən müddət (1993) Azərbaycan Respublikasının maarif naziri vəzifəsində də işləmişdir.

T.İ.Hacıyevin elmi yaradıcılığı çoxşaxəli olsa da, o, ən sanballı əsərlərini ədəbi dil problemlərinin öyrənilməsinə həsr etmişdir. T.İ.Hacıyev türkoloji dilçilikdə Azərbaycan ədəbi dili tarixi üzrə nüfuzlu mütəxəssis sayılır. O, “Azərbaycan ədəbi dili tarixinin dövrləşdirilməsi probleminə dair” (rus dilində) məqaləsində Azərbaycan ədəbi dili tarixinin yeni dövrləşdirilməsini irəli sürür. Elə həmin vaxtdan da alimin əsas elmi fəaliyyəti “Azərbaycan ədəbi dili tarixi”nin yazılması üzərində cəmləşir.

T.İ.Hacıyev 1976-cı ildə "Azərbaycan ədəbi dili tarixi (təşəkkül dövrü)" əsərini tədris vəsaiti kimi nəşr etdirir. Hazırda nadir nüsxələri qalmış bu əsər o vaxt Azərbaycan Respublikasında böyük əks-səda doğurmuşdu. Sonra, 1987-ci ildə onun "Azərbaycan dili tarixi, II hissə" əsəri ali məktəblər üçün dərslik kimi çap olunur. Alimin Azərbaycan ədəbi dili tarixinə dair mülahizələri K.N.Vəliyevlə birlikdə hazırladığı "Azərbaycan dili tarixi" (1983) dərs vəsaitində, Azərbaycan Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunda hazırlanmış "Azərbaycan ədəbi dili tarixi" (1991) adlı monoqrafiyada (bu kitabın mühüm hissəsi T.Hacıyev tərəfindən yazılmışdır) və Z.Budaqova ilə birlikdə yazdığı "Azərbaycan dili" (1992) əsərində daha da inkişaf etdirilmişdir.

Tədqiqatçının zəngin faktlar və dərin elmi təhlil əsasında yazdığı "Satira dili" (1975), "Yazıçı dili və ideya-bədii təhlil" (1979), "Molla Nəsrəddin"in dili və üslubu" (1983), "Füzuli: dil sənətkarlığı" (1994) kitabları Azərbaycan dilinin tarixi üslubiyyatı sahəsinə aiddir.

Klassik Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrinin əksəriyyətinin əsərlərinin dil və üslub xüsusiyyətləri T.Hacıyevin araşdırmalarının tədqiqat predmeti olmuşdur.

Bədii dili bütün dərinliyi ilə duyan, onu incəlikləri ilə təhlil etməyi bacaran akademik müasir ədəbi-bədii dil prosesini daima izləmiş, müasir şair və yazıçıların yaradıcılığına və bədii dilinə məqalələr həsr etmişdir. Bu mənada onun "Şerimiz, nəsrimiz, ədəbi dilimiz" (1990) əsəri bədii dilin sirlərini öyrənmək istəyən tədqiqatçıların stolüstü kitabıdır. T.Hacıyevin rus dilində nəşr olunmuş "Türk dillərində geminatların mənşəyi haqqında" (1971), "Türk dillərində qədim morfemlərin bərpası" (1987), "Tarixi qrammatika və ədəbi dil tarixi fənlərinə diferensial yanaşma" (1988) və s. məqalələri türkologiyanın aktual məsələlərinə həsr olunduğu üçün çox qiymətlidir.

T.İ.Hacıyev orta ümumtəhsil məktəbləri üçün Azərbaycan dili proqramının və dərsliklərinin hazırlanması işində də öncül mövqelərdən birini tutur. O, orta məktəblərin 10-11-ci sinifləri üçün "Azərbaycan dili" dərsliyinin müəlliflərindən biridir.

T.İ.Hacıyevin elmi maraq dairəsi ədəbiyyatşünaslıq məsələlərinin tədqiqini də əhatə edir. T.İ.Hacıyev 1996-cı ildə nəşr olunmuş "Üzeyir Hacıbəyov ensiklopediyası"nın da müəlliflərindəndir. Görkəmli türkoloq ikicildlik "Dədə Qorqud kitabı ensiklopediyası"nın aparıcı müəl-lifərindən biri və birinci cildin (Bakı, 2000) redaktorudur. Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda 2001-ci ildən nəşr olunan "Dədə Qorqud" elmi-ədəbi toplusu da onun redaktəsi ilə çıxmışdır.

T.İ.Hacıyev son illər türkologiya üçün maraq doğuran bir neçə əsəri – Murad Adcının "Qıpçaq çölünün yovşanı" kitabını, B.Serebrennikov və N.Hacıyevanın "Türk dillərinin müqayisəli-tarixi qrammatikası"nı və IX əsr bulqar şairi Mikayıl Baştunun "Şan qızı dastanı" poemasını rus dilindən Azərbaycan dilinə tərcümə edərək nəşr etdirmişdir. Onun 2005-ci ildə işıq üzü görmüş "Mikayıl Baştunun "Şan qızı dastanı və poetikası" kitabında poemanı tərcümə etməklə kifayətlənməmiş, bu əsər haqqında yüz səhifəlik tədqiqat yazmışdır.

T.İ.Hacıyev simpozium və elmi konfranslarda da müntəzəm olaraq iştirak etmişdir. O, sovet dövründə Bakı, Kişinyov, İrəvan, Alma-Ata, Düşənbə, Nukus, Nalçik, Bişkek və Ufa şəhərlərində keçirilmiş dilçilik müşavirələrində dəyərli məruzələrlə çıxış etmişdir. Sonralar o, Kayseri, Tehran, Antalya, Bakı, Ankara, Urmiya, Bursa, Konya, Təbriz və İzmir şəhərlərində keçirilmiş elmi konqres və qurultaylarda da məruzələr etmişdir.

T.İ.Hacıyevin elmi kadrların hazırlanması sahəsində də mühüm xidmətləri olmuşdur. Onun elmi rəhbərliyi altında 18 nəfər gənc tədqiqatçı namizədlik dissertasiyası müdafiə etmişdir. T.Hacıyev bir çox

istedadlı dilçilər də yetişdirmişdir. Məsələn, prof. N.Q.Cəfərov, prof. S.Ə.Abdullayev, prof. E.İ.Əzizov və b. onun yetirmələridir.

T.İ.Hacıyevin türkologiya elmi və türk dünyası qarşısındakı xidmətləri təkcə Azərbaycan Respublikasında deyil, Türkiyə Cümhuriyyətində də yüksək qiymətləndirilmişdir. 1995-ci ildə Türkiyə Cümhuriyyəti Atatürk Dil, Tarix və Kültür Qurumuna fəxri üzv seçilmişdir. 1998-ci ildə Türkiyə Cümhuriyyətinin "Ləyaqət nişanı" ilə təltif olunmuşdur. Türkiyənin Sanatçılar və Yazarlar Vəqfinin 2002-ci ildə "Türk dünyasına xidmət" ödülünü almışdır. 2004-cü ildə Karaman Türk Dili mükafatına, yenə həmin ildə Atatürk Dil Qurumunun Üstün Hizmət Baratına layiq görülmüşdür.

T.İ.Hacıyev elmi-pedaqoji fəaliyyətini ömrünün sonunadək gənclik həvəsi ilə davam etdirmişdir. Akademik T.Hacıyev bir çox yüksək dövlət və ictimai əsaslarla olan vəzifələrdə çalışmışdır. O, Azərbaycan Respublikasının təhsil naziri, sonralar həmin nazirliyin Azərbaycan türk dili elmi-metodiki şurasının sədri, BDU Böyük elmi şurasının üzvü, 3 cildlik Türk Dünyası Ensiklopediyasının müəlliflərindən biri, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Türk Dil Qurumunun fəxri üzvü, "Dədə-Qorqud ensiklopediyası"nın dil və ədəbiyyat şöbəsinin rəhbəri, 1989-cu ildə isə Sovet Türkoloqları Cəmiyyətinin üzvü seçilmişdir.

T.İ.Hacıyev elmi fəaliyyətə Azərbaycan dialektologiyası sahəsində başlamış, sonra Azərbaycan ədəbi dili tarixinin ən görkəmli araşdırıcısı kimi tanınmışdır. Sonralar o öz yaradıcılığının üfüqlərini genişləndirərək türk xalqlarının dili və ədəbiyyatı sahəsində ünlü mütəxəssis kimi tanınmışdır. Müasir türkologiyamızın görkəmli nümayəndəsi olan T.İ.Hacıyev bütün türk xalq dastanlarının tədqiqi və nəşri sahəsində səmərəli fəaliyyət göstərmiş, misilsiz əmək sərf etmişdir. Təkcə M.Kaşğarinin "Kitabi-divani-lüğət-it-türk"əsərinin ərsəyə gəlməsi işindəki xidməti onun filologiyamızda əvəzedilməz xidmətlərindən sayılmalıdır. O, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru kimi məsul bir vəzifəni yerinə yetirməklə Azərbaycan dilçiliyinin inkişafına dəyərli töhfələr vermişdir.

Böyük alim 2015-ci ilin 27 noyabrında dünyasını dəyişdi. Əgər ölüm-itim olmasaydı, 2016-cı ilin mayın 1-də prof. T.Hacıyevin 80 illiyini qeyd edəcəkdik. Min heyflər olsun, belə bir təntənəni biz görmədik. Təsəllimiz odur ki, o, öz övladlarının, nəvə və nəticələrinin, tələbələrinin, alim həmkarlarının, elm adamlarının qəlblərində, xatirələrində həmişə yaşayacaqdır. Öz elmi irsi ilə, daima öz dəyərini qoruyub saxlayacaq əsərləri ilə gələcək nəsillərə örnək olacaq. Buna biz ürəkdən əminik. Qəbrin nurla dolsun, yerin behişt olsun, ölməz müəllimimiz, ulu ustad!

*Möhsün Nağısoylu*